# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 30 (1158) 13 fevral -15 fevral 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# Tovuz - 2015



> "... Bu gün Azərbaycan təkcə neft ölkəsi deyil, bu gün Azərbaycan həm də kənd təsərrüfatı, sənaye ölkəsidi. Bizim kifayət qədər təbii, iqtisadi sərvətlərimiz, gücümüz, imkanlarımız var. Çalışmalıyıq ki, bundan sonra da qeyri-neft sektorunu daha da geniş əhatədə, daha böyük sürətlə inkişaf etdirib Azərbaycanın nemətlərini təkcə özümüzün, ölkəmizin bazarlarında deyil, həm də dünya bazarlarına çıxaraq".
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

**Azərbaycan çoxəsrlik tarixi, mədəniyyəti, adət və ənənələri olan heyrətamiz bir ölkədir. Müasir azərbaycanlıların əcdadları müxtəlif sivilizasiyalara və mədəniyyətlərə mənsubluq elementlərini çox ahəngdar şəkildə özlərində cəmləşdirib. Qədim dövrə aid bir sıra arxeoloji və memarlıq abidələri zamanın keşməkeşlərindən salamat çıxaraq zəmanəmizə qədər qalıb.**

Xalqın mənəvi aləminin maddi təcəssümü olan qədim qaya təsvirləri, yazılar, manuskriptlər, xalça naxışları həssas qəlbli, mədəni şüura, elm adamlarına, insanlara çox şeydən xəbər verir. Azərbaycanın çox qədim mədəniyyətə malik bir ölkə olması barədə dərin təəssürat yazılı və şifahi tarixin çoxsaylı faktlarına söykənir. Uzaq keçmişdə Azərbaycana köçüb gəlmiş Oğuz tayfaları burada zəngin yerli mədəniyyətlə qarşılaşmışlar. Bu görüş əsrlər boyu mədəniyyətlərin sintezinə səbəb olub, "Kitabi-Dədə-Qorqud", "Oğuznamə", "Koroğlu" kimi epik-monumental yaradıcılıq nümunələrində əks olunub.

Tovuz rayonu 1930-cu ilin avqust ayının 8-də yaradılıb. Rayon ölkədə ən iri kənd təsərrüfatı rayonlarından biri olmaqla ərazisi 1903 kv km.dir.

Məşğul əhalinin əsas hissəsi kənd təsərrüfatında, rayonda fəaliyyət göstərən idarə və müəssisələrdə, özəl sektorda və xidmət sahələrində çalışır.

Tovuz rayonunda 2 şəhər (Tovuz və Qovlar şəhərləri) və 102 kənd vardır. Rayonda 43 inzibati ərazi dairəsi, 41 bələdiyyə mövcuddur.

Rayon ərazisində 235 idarə və müəssisə, 9 bank filialı, 2 rabitə müəssisəsi, mehmanxanalar fəaliyyət göstərir. Hazırda rayon üzrə məşğul əhalinin sayı 76174 nəfər, o cümlədən onların 45266 nəfəri kənd təsərrüfatında, 7745 nəfəri təhsil və mədəniyyət müəssisələrində, 5767 nəfəri ticarət və içtimai iaşədə, 5836 nəfəri tikintidə, 3240 nəfəri nəqliyyat və rabitədə, 2632 nəfəri səhiyyədə və sosial təminatda, 1670 nəfəri idarəetmə orqanlarında, 1170 nəfəri mənzil-kommunal təsərrüfatı və əhaliyə məişət xidmətində, 1572 nəfəri sənayedə, 1276 nəfəri digər sahələrdə çalışır.

Tovuz Azərbaycanın digər rayonları kimi gün-gündən inkişaf etməkdədir. Hətta rayonun müəyyən ərazisi Ermənistan ilə sərhəddə yerləşsə də, həmin ərazilərin sosial-iqtisadi inkişafı da diqqət mərkəzindədir. Belə ki, Rayonun Ermənistan ilə sərhəddə yerləşən Əlibəyli kəndinə yeni içməli su xətti çəkilib. Xatırladaq ki, bu layihə Əlibəyli, Hacallı, Mülkülü kəndlərində yaşayan əhalini, ictimai binaları, sosial sahələri içməli su ilə təmin etməkdədir.

Son illərdə Tovuz rayonunda genişmiqyaslı quruculuq işləri aparılıb, yollar çəkilib, onlarla məktəb tikilib, səhiyyə, mədəniyyət və idman müəssisələri istifadəyə verilib, parklar salınıb, tarix və mədəniyyət abidələri bərpa olunub, çoxlu sayda turizm obyektləri açılıb, kəndlər abadlaşdırılıb. Həmçinin mühüm sosial layihələr icra olunub, o cümlədən rayon üçün çox mühüm əhəmiyyət kəsb edən Tovuz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri yenidən qurulub.

Son yeddi ildə Azərbaycan Prezidenti İlham Əliyev Tovuz rayonuna dəfələrlə səfər edib, bu obyektlərin əksəriyyətinin təməlqoyma və açılış mərasimlərində iştirak edib, görülən işləri yüksək qiymətləndirib.

Mərasimdə çıxış edən kənd sakinləri qayğı və problemlərinin həllinə göstərdiyi gündəlik diqqət və qayğıya görə dövlətimizin başçısına öz minnətdarlıqların bildiriblər.

Rayonda 2014-cü ilin birinci yarımilliyinin yekunlarına hərs olunmuş geniş Şura iclası keçirilib. Tovuz Rayon İcra Hakimiyyəti başçısı yanında şuranın iclasında cari ilin altı ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə edilib.

Hesabat məruzəsində cari ilin birinci yarısının bütövlükdə rayon üçün uğurlu olduğu diqqətə çatdırılıb. Bildirilib ki, hesabat dövründə rayonun sosial iqtisadi inkişafı, əhalinin rifah halının yüksəldilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər qətiyyətlə davam etdirilib.

Kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilən tədbirlər nəticəsində 2014-cü ilin 9 ayı ilə müqayisədə ət istehsalı 3 faiz, süd istehsalı 1,8 faiz, yumurta istehsalı 4,4 faiz, yun istehsalı 2,2 faiz artmış, iribuynuzlu mal-qaranın sayı 499 baş artaraq 45801-ə, ana heyvanların sayı 35 baş artaraq 17806-ya, qoyun və keçilərin sayı 1648 baş artaraq 237 minə çatdırılıb.Rayonun torpaq mülkiyyətçiləri indiyədək 9514 hektar taxıl zəmisindən 29809 ton məhsul əldə ediblər. Buğda əkilmiş sahələrin hər hektarından 31,5 sentner məhsul götürülüb.

Hesabat dövründə rayonda aparılan tikinti-quruculuq və abadlıq işlərinə toxunularaq bildirilib ki, Tovuz şəhərinin Heydər Əliyev prospektində abadlıq işləri davam etdirilib, Nizami, F.Ələkbərov, Xətai və M.Musayev küçələrinə 14500 kvadratmetrə yaxın asfalt-beton örtük qoyulub.

Hazırda Qovlar şəhərinin Şəhriyar küçəsindəki parkda yenidənqurma işləri aparılır. Bu müddətdə 180 şagird yerlik Papaqçılar, 220 şagird yerlik Şamlıq, 180 şagird yerlik Çeşməli, hər biri 80 şagird yerlik Qalaboyun, Qaradaş və Muncuqlu kənd tam orta məktəblərinin tikilib. Tovuz şəhərində Nizami adına mədəniyyət evinin və Aşıq Hüseyn Bozalqanlı adına "Ozan" Aşıq Sənəti Dövlət Muzeyinin, Qovlar şəhərində Rabitə evinin və Gənclər evinin tikintisi də hər kəsin sevincinə səbəb olub.

**Ötən ilin müvafiq dövrü ilə müqayisədə mərkəzi orqanlardan və vətəndaşlardan rayon icra hakimiyyəti başçısı aparatına çoxlu sayda vətəndaş müraciəti daxil olub. Buna baxmayaraq, müraciətlərin böyük əksəriyyəti yerindəcə həllini tapıb. Çünki bu müraciətlərdə qaldırılan məsələlər əsasən torpaq, mənzil-məişət problemləri, maddi yardım, əhalinin sosial müdafiəsi, kənd təsərrüfatı, sahibkarlıq və s. ilə əlaqədardır.**

**(ardı gələn sayımızda)**

***Əbülfət MƏDƏTOĞLU***